

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

9 sentyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 34 (3547)

# REGİONAL İNKİŞAFA AZƏRBAYCAN TÖHFƏSİ

## Reallığa çevrilən planlar və dəyişməyən lider mövqeyi

Sentyabrın 3-də Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında “Azmonbat” Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə yaradılan sənaye parkları barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, ölkəmizdə sənaye parklarının yaradılması istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından çox əhəmiyyətlidir.

Cənubi Qafqazın ən böyük, Azərbaycanın isə ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında 5500-dək insanın daimi işlə təmin ediləcəyini deyən iqtisadiyyat naziri parkda 24 sahibkarlıq subyektinə rezidentlik statusunun verildiyini, 17-sinin istehsala başladığını diqqətə çatdırıb.

Dövlətimizin başçısı müəssisəni işə salıb.

Sonra Prezident İlham Əliyev Sumqayıt Məhkəmə Kompleksinin açılışını edib.

Ədliyyə naziri Fikrət Məmmədov kompleksdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verib. Məhkəmə sistemində islahatların uğurla həyata keçirildiyini bildirən ədliyyə naziri yeni regional inzibati və kommersiya məhkəmələrinin təsis edildiyini, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradıldığını, məhkəmələrin və hakimlərin təminatının gücləndirildiyini qeyd edib.

Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni,



o cümlədən Sumqayıt apelyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir.

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Sumqayıt Məhkəmə Kompleksində 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərəcək.

Prezident İlham Əliyevə ədliyyə və məhkəmə sahəsində tətbiq olunan növbəti rəqəmsal innovasiyalar barədə də məlumat verilib və videoçarx nümayiş etdirilib.

Dövlətimizin başçısı Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməlini qoyub.

Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov Prezident İlham Əliyevə layihə barədə məlumat verib.

Bildirilib ki, 2 hektar ərazini əhatə edən layihədə ümumi sayı 466 mənzil olan on iki və on altı mərtəbəli 11 bina inşa olunacaq. Ərazidə, həmçinin 90 yerlik uşaq bağçası da tikiləcək.

Vətəndaşlara güzəştli şərtlərlə təklif edilən bütün mənzillərin tam təmirli olacağı, həmçinin mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacı ilə təmin ediləcəyi diqqətə çatdırılıb.

Sonra Prezident İlham Əliyev Enerjisistemin Reabilitasiya Proqramı çərçivəsində inşa olunan “Sumqayıt” Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının açılışında olub.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Reabilitasiya Proqramı çərçivəsində “Sumqayıt” Elektrik Stansiyasında əsas avadanlıqların, generatorların, habelə digər qurğuların əsaslı təmir olunduğunu deyən ASC-nin prezidenti B.Rzayev yenidənqurma və əsaslı təmir işlərinin stansiyanın səmərəli fəaliyyətinə müsbət təsir göstərdiyini bildirib. Elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın həcminin azalması nəticəsində ildə 10 min ton yanacağa qənaət ediləcəyi də vurğulanıb.

Dövlətimizin başçısı “Sumqayıt” Elektrik Stansiyasının yeni estakada nasos stansiyasını işə salıb.





## “Qarabağ” təyyarəsi Füzuli hava limanında



Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsindən əvvəl “Qarabağ” adını daşıyan “Azərbaycan Hava Yolları”na məxsus ən böyük “Airbus A340-500” tipli sərnişin təyyarəsi sentyabrın 5-də sınaq reysi həyata keçirib.

Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti 35 dəqiqə olub.

Füzuli Beynəlxalq Hava Limanında uzunluğu 3 min metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Uçuş-enmə zolağı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikinci radiolakasiya sistemləri ilə tam təchiz olunub.

Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

Həmin gün Azərbaycanın “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan “Boeing 747-400” tipli hava gəmisi də Füzuli hava limanına enib. Təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb.

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da Yaponiyanın Tokio şəhərində keçirilən XVI Yay Paralimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının əlilliyi olan idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri sentyabrın 6-da Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı sentyabrın 6-da Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Sentyabrın 6-da ölkəmizin rəhbəri Azərbaycan Milli Paralimpiya Komitəsinin rəhbərliyinin təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 6-da Ağdaş, Ağsu, İsmayıllı, Qəbələ, Qobustan, Oğuz və Şamaxı rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri sentyabrın 6-da Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Fərəh Şirməmməd qızı Əliyevanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Sentyabrın 6-da dövlətimizin başçısı Azərbaycan Respublikasında maliyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Samir Rauf oğlu Şərifovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

*Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 7-də Fərid Fazil oğlu Qayıbovun Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri sentyabrın 7-də Şimali Makedoniya Respublikasının Prezidenti Zati-aliləri cənab Stevo Pendarovskiyə Şimali Makedoniya Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə təbrik məktubu ünvanlayıb.*

# Murovdağın xilaskarları

## Quşqonmaz zirvələri onlar azad etdilər



**Dövlətçilik və hərb tariximizin unudulmaz səhifəsi olan 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızdan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu, baş çavuş Həsənov Tofiq Etibar oğludur. O, 21 noyabr 1989-cu ildə Gədəbəy rayonunun Cəfərli kəndində doğulub. Tələbə adını qazanmaq üçün gecəsini-gündüzünə qatıb. Topladığı bal ödənişli əsaslarla təhsil almağa çatsa da müəyyən səbəblərdən arzusuna çata bilməyib.**

2008-ci ilin yanvarında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ilin iyul ayınadək Daxili Qoşunların Biləcəri qəsəbəsindəki "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Həmin aydan etibarən Tofiqin Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidməti başlayıb. Əvvəlcə qoşunların Sumqayıt şəhərindəki "N" saylı hərbi hissəsində xüsusi təyinatlı taqımın həmlə manqasında atıcı vəzifəsinə təyin olunub. 2010-cu ilin fevral ayından 2018-ci ilin iyun ayınadək Biləcəridəki "N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun yarımqrupunda atıcı, atəş təminatı qrupunda AQS-17 qumbaraatanın komandiri, AQS-17 qumbaraatan yarımqrupunun komandiri vəzifələrində xidmət edib. 2018-ci ilin iyun ayında isə qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsinə keçirilərək, xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrupunda pulemyotçu vəzifəsi ona həvalə edilib. Tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub.

Xüsusi təyinatlı kimi öz məharəti sayəsində "Zoğalı beret" daşıma hüququna sahiblənib. Ümumilikdə, təlimlərdə və məşğələlərdə döyüş hazırlığının yüksəldilməsi üçün əzmkarlıq göstərib.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinin ilk günündən qoşunların Zaqataladakı "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları döyüş əməliyyatlarına cəlb olunub. Bir neçə gün çəkən döyüş yolu Kəlbəcər rayonu istiqamətində, Murovdağ ərazisində keçib. Mürəkkəb relyefə, dəyişkən iqlimə malik Murovun sıldırım qayalarında, sərt aşırımlarında, çətin qalxılan zirvələrində xüsusi təyinatlılarımız düşmənə qarşı rəşadətlə vuruşublar. Burada onların qarşısına qoyulan əsas döyüş tapşırığı düşmənin illərlə möhkəmləndirdiyi postların məhv edilməsi və strateji yüksəkliklərin ələ keçirilməsi olub. Şiddətli döyüşlər zamanı erməni işğalçılarına tutarlı zərbələr vurulub.



"N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı, "Zəfər" ordenli, "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilən mayor Sahib İbrahimov bildirdi ki, Tofiq nizam-intizamlı, məsuliyyətli və qorxmaz hərbi qulluqçu olub. Peşəsinə rəğbət bəsləyib, özünü daim Vətənin müdafiəsinə hazırlayıb. O, müharibəyə də ruh yüksəkliyi ilə yollanıb, Vətənə məhəbbət, hərbi anda sədaqət, düşmənə nifrət hissi ilə vuruşub. Xüsusi təyinatlı olaraq peşəkar hazırlığı döyüş sınağında onun köməyinə yetib, çətin keçilən ərazidə, atəş altında qətiyyət nümayiş etdirib.

"Orta Camış" adlanan yüksəklik ərazisində hücuma keçən qrupun tərkibində olan Tofiq pulemyotçu kimi düşməni canlı qüvvəsini ciddi itkiyə məruz qoyub. Həmçinin, işğalçıların bir neçə atəş nöqtəsini susdurub.

Mayor S.İbrahimov deyir ki, 2020-ci il sentyabrın 30-da səhər saatlarında Kəlbəcər rayonu istiqamətindən digər ön cəbhə istiqamətinə hərəkət etmək tapşırığı verilib. Avtomobil karvanı hərəkətə başlayarkən düşmən artilleriyasının şiddətli atəşinə məruz qalıb. Tofiq avtomobildən yerə tullanıb mövqelənmək istədikdə yaxınlığında partlayan mərmi onun həyatına son qoyub.

Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən Müharibəsi Qəhrəmanı, "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunan kapitan Nicad Bədəlov igid silahdaşını belə xatırlayır: "Tofiqi 2018-ci ildən tanıyırdım. Çox vətənpərvər və qorxmaz bir oğul idi. Kəlbəcər istiqamətində döyüşlərdə Tofiq bir hərbçiyə xas olan bütün keyfiyyətlərini nümayiş etdirdi".

Şəhid hərbi qulluqçumuz doğulduğu kənddə torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Tofiq Həsənov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Tofiqin Vətənə və xalqa Melisa adlı qızı, Tunar adlı oğlu əmanət qalıb.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# Ənənəvi təhsil bərpa olunur

## Polis təhlükəsizlik tədbirlərini gücləndirəcək



Uzunmüddətli fasilədən sonra ölkəmizdə sentyabrın 22-dən birinci, sentyabrın 29-dan isə 5-ci və 11-ci siniflərdə, orta və ali ixtisas məktəblərində ənənəvi tədris bərpa olunacaq. Oktyabrın 1-dən də məkbəqədər hazırlıq qruplarında tədris əyani şəkildə davam etdiriləcək. Bu barədə təhsil naziri Emin Əmrullayev məlumat verib.

Tədrisin ənənəvi şəkildə bərpası bu çətin pandemiya dönəmində ictimai nəqliyyatda, qapalı məkanlarda sanitar-epidemioloji qaydalara əməl etməyin, sosial məsafənin təmin edilməsinin, tibbi maskadan istifadənin zəruriliyini gündəmə gətirir.

Qarşıya çıxan çətinliklərə baxmayaraq, karantin qaydalarına riayət olunmasını təmin etmək, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanları səfərbər olunublar.

Uşaqların təhlükəsizliyi də diqqət mərkəzindədir. Belə ki, məktəblərin yerləşdiyi ərazilərə, o cümlədən piyada keçidlərinə yol polisi əməkdaşları nəzarəti daha da gücləndirəcəklər.

# Kursantlarımızın daha bir uğuru

## Güclənən beynəlxalq əlaqələr və keyfiyyətli tədris



Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizdə ali məktəblər arasında keçirilən Beynəlxalq Humanitar Hüquq üzrə milli müsabiqənin qalibi kimi DİN Polis Akademiyasının kursantlarından ibarət komanda 26-29 avqust 2021-ci il tarixlərində Moskvada Beynəlxalq Humanitar Hüquq müsabiqələrinin məzunlarının görüşündə iştirak ediblər.

BQXK-nın Rusiya Federasiyası, Belarus ve Moldova üzrə Moskva şəhərindəki Regional Nümayəndəliyində keçirilən görüşlərə Komitənin məsul şəxsləri, o cümlədən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin əməkdaşları da qatılıblar.

Səfər çərçivəsində bir çox tədbirlərdə iştirak edən kursantlarımızın bilik səviyyəsi, dünyagörüşü yüksək qiymətləndirilib, qaliblərə hədiyyələr təqdim edilib.

*"Polis"*

# Peşəkar və ayıq-sayıq xidmət

Koronavirus xəstələrinin ictimai yerlərdə, iaşə obyektlərində, eləcə də sərnişin nəqliyyat vasitələrində aşkar edilməsi istiqamətində Binəqədi RPİ 5-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri növbəti tədbir zamanı "147" nömrəli şərnişin avtobusunda tibbi maskadan istifadə etməyən şəxs saxlanılıb.



Yoxlama zamanı müəyyən edilib ki, həmin şəxs Bakı şəhər Nizami rayon sakini Nəriman Xəmidovdur və o, ev şəraitində müalicə alan aktiv virus daşıyıcısıdır.

**Bölmə rəisi, polis mayoru Cavid İsmayılzadənin** sözlərinə görə, N.Xəmidov saxlanılan zaman tabesizlik göstərsə də asayiş keşikçilərinin peşəkarlığı sayəsində tibbi prosedurlar gözlənilməklə dərhal ictimai nəqliyyatdan uzaqlaşdırılıb. Toplanmış materiallar əsasında Binəqədi RPİ-nin İstintaq Şöbəsində N.Xəmidov barəsində Cinayət Məcəlləsinin 139-1-ci maddəsi ilə cinayət işi başlanılıb.

Qeyd edək ki, bölmə əməkdaşları mütəmadi olaraq inzibati ərazidə koronavirusun törədə biləcəyi fəsadlarla bağlı profilaktik söhbətlər aparır, ev şəraitində müalicəsi təyin edilən xəstələrə yerlərini tərk etmələrinin cinayət məsuliyyəti yaratdığı barədə xəbərdarlıq edirlər.



Həmkarlarımız koronavirusla mübarizə ilə yanaşı, cinayətkarlıqla da mübarizədə ayıq-sayıqlığı itirmirlər. Belə ki, bugünlərdə törədilmiş oğurluq hadisəsinin üstü bölmə əməkdaşları tərəfindən "isti izlər"lə açılıb. Daxil olmuş məlumat əsasında keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində rayon ərazisindəki mənzildən və mağazadan oğurluq edən azyaşlılar saxlanılıblar. Araşdırma zamanı bəlli olub ki, onlar mənzildən 150 manat dəyərində elektrik naqillərini, qapını açma yolu ilə "Alkopon evi" mağazasından dəyəri 300 manat olan "Samsunq A50" markalı mobil telefonu oğurlayıblar. Eyni zamanda, rayon ərazisində yerləşən istilik sistemləri mağasına da qapını açma yolu ilə daxil olan azyaşlılar oradakı kömpüter və digər avadanlıqları yararsız hala salaraq vətəndaş Samir Məmiyevə ümumilikdə 2 min manat maddi ziyan vurublar. Onların törətdiyi əməllər mağazalardakı təhlükəsizlik kameralarında qeydə alınıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.

*Teymur Əlizadə,*
*polis mayoru*



# TƏLƏBƏ ADINI QAZANDILAR

## Polis övladları da yüksək nəticə göstəriblər

**Bir neçə il öncə təhsildə, idmanda və musiqidə uğur qazanan, ölkəmizi beynəlxalq arenalarda təmsil edən polis övladları barədə ideyamız paytaxtda olduğu kimi, yerlərdə də maraqla qarşılandı.**


Abdullazadə Rəhim


Cəfərli Səma


Əsədli Natiqə

Bu il də onları arayıb-axtardıq və tapdıq.

Gecəli-gündüzlü, ayıq-sayıq Vətənə və dövlətə layiqli xidmət edən valideynlərinin üzünü istedadı, bilik və bacarığı ilə ağardan gənclərimizin gələcək hədəflərini onların dilindən eşitdikdən sonra bir daha əmin olduq ki, gələcəyimiz etibarlı əllərdədir.

İnanırıq ki, hələ bundan sonra da “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam” nidasını üçrəngli bayrağımız kimi dünyaya daşıyacaq gənclərimizi tanıyıb, tanıdıb və onlarla qürur duyacağıq.

DİN Baş Əməliyyat və Statistika İdarəsinin baş mühəndis-proqramçısı, polis polkovnik-leytenantı Rauf Abdullayevin övladı **Abdullazadə Rəhim** 160 nömrəli Klassik gimnaziyanı qırmızı attestatla bitirib. O, bu il qəbul imtahanlarında ən yüksək nəticə göstərən polis övladları sırasında 642 balla liderlik edir. Rəhim Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İnformasiya təhlükəsizliyi fakültəsinə qəbul olub və dövlət sifarişi əsasında ingilis dilində təhsil alacaq.

**Cəfərli Səma** Naftalan ŞPŞ-nin təşkilati-inspektor qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Səbuhi Cəfərovun övladıdır. O, bu il qəbul imtahanlarında 638 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi adını qazanıb. Həmkarımızın digər iki qızı - **Cəfərli Fidan** 2015-ci ildə 648 balla Tibb Universitetinə, **Cəfərli Banuçiçək** isə 2017-ci ildə 668 balla Bakı Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olub və hər ikisi ali məktəbləri fərqlənmə ilə bitiriblər.

**Natiqə Əsədli** kiçik yaşlarından rənglərin dilini öyrənməyə başlayıb. Onun rənglər dünyası bu gün dünyanı heyran qoyur. Mənsub olduğu ailə tablosunda hər kəs qələmin də, fırçanın da qüdrətinə bələddir. Natiqə İncəsənət Gimnaziyasının məzunudur. Bir çox rəsm müsabiqələrinin qalibidir. Bu il Azərbaycan Rəssamlıq Akademiyasının Rəngkarlıq fakültəsinə daxil olub. Onu tanıyanlar “Sən rəssam polisin övladısan, əlbəttə ki, bu istedad gec-tez üzə çıxacaqdı”,- deyəndə ilk müəllimi, atası, yolların da, sürücülərin də yaxşı tanıdığı DİN BŞBPİ-nin Dövlət Yol Polisi İdarəsinin Hərəkətin Təhlükəsizliyinin Təbliği və İctimai Qurumlarla əlaqə Bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədova qürur duyur.

Yüksək bilik və qabiliyyət nümayiş etdirərək tələbə adını qazanan hər bir polis övladını təbrik edir, “Polis”adından uğurlar arzulayırıq.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# ADI DA YAŞAYACAQ, XATİRƏSİ DƏ

**Bakıda çimərlikdə boğulmaqda olan şəxsi sudan çıxarmağa cəhd göstərərkən həyatını itirən Əlahiddə Çevik Polis Alayının əməkdaşı, 21 yaşlı İbrahim Əlosmanov əvvəl 4 nəfəri ölümdən xilas edib.**




Bir neçə gün öncə bu xəbər saytların, sosial şəbəkə platformalarının manşetinə çevrildi.

Bir ailənin 5 üzvünün batmaq təhlükəsilə üzləşdiyini görən İbrahim dərhal dənizə girib və ilk cəhddə ailənin iki üzvünü xilas edib. Sonra o, daha 2 nəfəri ölümün cəngindən alaraq sahilə çıxarıb. Həmin vaxt xilas etdiyi şəxslərdən birinin epilepsiya xəstəsi olduğunu görəndə ona ilk tibbi yardım göstərib. Yorulmasına baxmayaraq, batmaq təhlükəsində olan ailənin sonuncu üzvünü qurtarmağa çalışarkən isə hər ikisi həlak olub.

Polis sıravisi İbrahim Əlosmanov 2000-ci ildə Qobustan rayonunda doğulub. Bu ilin yanvar ayından daxili işlər orqanlarında xidmət edirdi.

“Az bir müddət xidmət etməsinə baxmayaraq qarşıya çıxan hər çətinliyə sinə gərən bir əməkdaş idi. Verilən tapşırıqları böyük həvəslə və məsuliyyətlə yerinə yetirirdi”,- deyən **DİN ƏÇPA Xüsusi Təyinatlı 2-ci Taborun 1-ci bölüyünün komandiri, polis mayoru Rahib İsmayılov** onun əziz xatirəsinin və qəhrəmanlığının heç zaman unudulmayacağını söyləyir.

Xilaskar həmkarımız yaşasaydı sentyabrın 12-də doğum gününü qeyd edəcəkdi.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Fransadan gələn məktub

Səbail Rayon Polis İdarəsi əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirləri nəticəsində “Travel İnn Hostel”-dən oğurluq edən Beyləqan rayon sakini Elnur Canbazov saxlanılıb.



Belə ki, E.Canbazov AVRO-2020 futbol oyunlarını izləmək üçün Bakıya gələn Türkiyə Cümhuriyyəti və Fransa Respublikasının vətəndaşı, azarkeş Altındağ Muhammedin çarpayısının altında əmlakını yığdığı və ona məxsus saxlanc yeri hesab edilən dolaba qanunsuz daxil olaraq özgənin əmlakını gizli talayıb. O, dolabdan 100 manat dəyərində pul kisəsini, “İphone 6S” və “İphone XS” markalı mobil telefonları, “Apple Airpods 2+etui” qulaqcıqlarını, 100 manatı, eləcə də 50 avronu oğurlamaqla zərər çəkmiş şəxsə ümumilikdə 1505 manat maddi ziyan vurub. Törətdiyi əməldən boyun qaçırmaq istəyən Elnur istintaqçıların təqdim etdiyi maddi sübutlar qarşısında aciz qalıb.

Səbail RPİ İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

Təqsirkarın qısa zaman kəsiyində ifşa olunmasında, ona dəymiş maddi ziyanın ödətdirilməsində vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, o cümlədən yüksək peşəkarlıq nümayiş etdirdiklərinə görə Altındağ Muhammed Azərbaycan Polisinə, Səbail RPİ-nin rəhbərliyinə və şəxsi heyətinə təşəkkür məktubu ünvanlamağı da unutmayıb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Nöqsanlar aradan qaldırılır

## Paytaxtda və yerlərdə yoxlamalar keçirilir

DİN-in 2 fevral 2021-ci il tarixli “Nazirliyin aparatında və strukturuna daxil olan qurumlarda 2021-ci ildə keçiriləcək yoxlamaların vahid Planı”na uyğun olaraq respublikanın Abşeron, Sumqayıt, Salyan, İmişli, Saatlı, Sabirabad, Şirvan, Hacıqabul, Kürdəmir, Ağsu, Zaqatala, Balakən, Qax, Astara, Lənkəran, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Zəngilan, Qubadlı, Xocavənd, Şuşa, Füzuli, Cəbrayıl şəhər, rayon polis orqanlarında DİN Baş İctimai Təhlükəsilik İdarəsinin əməkdaşları tərəfindən bir sıra təlim məşqləri keçirilmiş, şəxsi heyətin həyəcan siqnalı ilə müvafiq sxem üzrə toplanması vəziyyəti yoxlanılmışdır.



Baş İdarədən “Polis”ə bildirilib ki, yoxlamalar zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, gələcəkdə təkrarlanmaması, şəxsi



heyətin fiziki hazırlıq səviyyəsinin artırılması, zahiri görünüşü peşə tələblərinə uyğun olmayan bayır xidməti əməkdaşlarının çəkisinin müvafiq tələblərə uyğunlaşdırılması, sıra hazırlığı və xüsusi vasitələrin tətbiqi qaydalarının öyrədilməsi, bu sahədə praktiki təcrübənin və peşəkarlığın daha da artırılması istiqamətində tədbirlər davam etdirilir.

Təlimlərdə sıra nizamnaməsinin tələbləri, o cümlədən fərdi mühafizə vasitələrinin tətbiqi, fəal müdafiə vasitələrindən və xüsusi əməliyyatların keçirilməsini təmin edən vasitələrdən istifadə qaydaları, xüsusi vasitələrlə sıra hərəkətləri və yeriş üsulları, tutulmuş şəxslərin müşayiətinə dair tapşırıqların icrası əməkdaşlara əyani göstərilmişdir.

Qeyd olunanlarla yanaşı, DİN-in 20.08.2019-cu il tarixli “Fövqəladə şəraitdə asayişin və hüquq qaydasının təmin edilməsi haqqında” qərarının tələbləri də diqqətdə saxlanılmış, şəxsi heyətlə fiziki qüvvənin tətbiqi (əlbəyaxa döyüş), ekstremal şəraitdə və sıralarla şəxsi heyətin idarə olunmasında komandir heyətinin rolu üzrə praktiki təlimlər keçirilmiş və bu istiqamətdə onlara bilik səviyyələrinin artırılması üçün zəruri tövsiyələr verilmişdir.

Fiziki hazırlıq səviyyəsinin artırılması, zahiri görünüşü peşə tələblərinə uyğun olmayan bayır xidməti əməkdaşlarının çəkisinin qısa müddətdə müvafiq tələblərə uyğunlaşdırılması məqsədilə əlavə məşğələlərin təyin edilməsi, həmçinin ona nəzarətin gücləndirilməsi şəhər, rayon polis orqanları rəhbərlərindən tələb edilmişdir.

*“Polis”*

# BİZƏ YAZIRLAR...

## Məktublar etibarın, etimadın və sevginin təcəssümüdür



Bakı şəhər sakini Xatun Etibarqızı müraciətinə operativ baxılaraq tədbir görüldüyünə, eyni zamanda narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizəyə görə DİN və Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Litva vətəndaşı Elena Tatarskaya itkin düşmüş hesab olunan Vyaçeslav Quliyev barəsində məlumat almaq üçün DİN-nə məktubla müraciət edib. Polis dərhal araşdırmalara başlayıb. E.Tatarskaya qısa zaman kəsiyində həmin şəxs barəsində ona məlumat verildiyinə görə Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

Bakı şəhər sakini Elvina Karadeniz Nərimanov rayonu ərazisində ictimai asayişin və təhlükəsizliyin təmin olunmasına görə xidməti vəzifələrini layiqincə yerinə yetirən Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Paytaxt sakini Gülçin Ələkbərova üzləşdiyi soyğunçuluq faktı ilə bağlı müraciətinə həssas yanaşıldığına və qısa müddətdə bu cinayət əməlini törədən şəxsin saxlanıldığına görə Xəzər RPİ 3-cü Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Akif Bağırov avtomobilinin texniki vəziyyəti ilə bağlı etdiyi müraciətə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən həssaslıqla yanaşıldığını və məsələnin müsbət həll olunduğunu yazır.

Sumqayıt şəhər sakini Səbinə Vüqarlı "Tik-tok" sosial şəbəkəsində təhqir olunması ilə bağlı etdiyi müraciətə polis əməkdaşlarının dərhal reaksiya verərək məsələni araşdırdıqlarına görə təşəkkür edir.

Vətəndaş Roza Həsənova şantaj və hədələrə məruz qalması barədə etdiyi müraciətə, eləcə də ona dəymiş ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

*“Polis”*

# "KALAŞNİKOV" SİLAHI AŞKAR EDİLİB

Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirilib.

Belə ki, əvvəllər dəfələrlə məhkum olunmuş Vasif Qəmbərovun üzərində qanunsuz olaraq odlu silah-sursat gəzdirməsi barədə polis əməkdaşlarına əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs qısa zamanda Sabunçu rayonu Ramana qəsəbəsi ərazisində saxlanılıb. Polis İdarəsində onun üzərinə baxış keçirilərkən "Kalaşnikov" markalı avtomat silah, sandıqça və 6 ədəd patron aşkar olunaraq götürülüb. V.Qəmbərov silah-sursatın ona məxsus olduğunu, bir müddət əvvəl tapmasına baxmayaraq polis əməkdaşlarına təhvil vermədiyini bildirib.



Faktla bağlı Sabunçu RPİ-nin İstintaq Şöbəsində V.Qəmbərov barəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# "Xaşxaş-2021" tədbirləri davam edir

İsmayıllı RPŞ-nin əməkdaşları İsmayıllı kənd sakini, əvvəllər məhkum olunmuş Ş.Ələğalıya məxsus həyətyanı sahədən 9, Siyəzən RPŞ-nin əməkdaşları şəhər sakini, əvvəllər məhkum olunmuş S.Mirzəyevə məxsus həyətyanı sahədən 11 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları, Salyan RPŞ-nin əməkdaşları Kürqaraqaşlı kənd sakini, əvvəllər məhkum olunmuş K. Zeynalov tərəfindən kultivasiya yolu ilə yetişdirilmiş 19, Astara



RPŞ-nin əməkdaşları Züngüləş kəndi ərazisində kənd sakinləri C.Əhədovun və E.Eyvazovun kultivasiya yolu ilə yetişdirdikləri 36 ədəd çətənə kolları, Masallı RPŞ-nin əməkdaşları Musaküçə kənd sakini Q.Bayramova məxsus həyətyanı sahədən 3 ədəd çətənə kolu, həyətindəki yardımçı təsərrüfatdan isə 370 qram marixuana, Salyan RPŞ-nin əməkdaşları Kürqaraqaşlı kənd sakinləri, əvvəllər məhkum olunmuşlar - M.Dadaşovun və Z.Süleymanovun kultivasiya yolu ilə yetişdirdikləri 39 ədəd çətənə kolu və 4 kiloqram 30 qram marixuana, Göyçay RPŞ-nin əməkdaşları Qarabaqqal kənd sakini N.Hacıyevin həyətindən 12 ədəd çətənə kolu və 287 qramdan artıq qurudulmuş marixuana, Ucar RPŞ-nin əməkdaşları şəhər sakini R.İsrailova məxsus həyətyanı sahədən 38 ədəd çətənə kolları, Sabirabad RPŞ-nin əməkdaşları Qarağac kənd sakini N.Süleymanova məxsus həyətyanı sahədən 11 ədəd çətənə kolu, yaşadığı evə baxış zamanı 410 qram marixuana və "İJ" markalı ov tüfəngi, Xaçmaz RPŞ-nin əməkdaşları şəhər sakini Ə.Hüseynova məxsus həyətyanı sahədən 26 ədəd çətənə kolu və 7 kiloqram 120 qram marixuana, Yevlax RPŞ-nin əməkdaşları şəhər sakini H.Zeynalova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 39 ədəd çətənə kolu və 5 kiloqram 80 qram marixuana aşkar edərək götürmüşlər.

*N.Cavadov,*
*polis mayoru*

# MONİTORİNQLƏR NƏTİCƏSİNDƏ...

1-8 sentyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 23 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 14 şadlıq sarayında, 9 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 11 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 75 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*Natiq Cavadov*

**Suraxanı RPİ 31-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuş E.Gözəlov və qardaşı saxlanılmışlar. Şəxsi axtarış zamanı E.Gözəlovdan 1 kiloqram 570 qram heroin, qardaşından isə 6 qramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Xətai RPİ 34-cü Polis Şöbəsinə** müraciət edən Bakı şəhər sakini T.Xəlilov sentyabrın 6-da Əhmədli küçəsində bir nəfərin onun mobil telefonunu açıq talama yolu ilə aldığını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən paytaxt sakini H.Ələkbərov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Sabunçu RPİ 15-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılan Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Əliyevdən 1 kiloqram 50 qram heroin götürülmüşdür. Keçirilən daha bir əməliyyat tədbiri nəticəsində saxlanılan Zabrat qəsəbə sakini F.Zeynalabdinovdan da heroin, metamfetamin və marixuana götürülmüşdür.

◆◆◆

**Nərimanov RPİ 17-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində iyulun 16-da rayon ərazisindəki yeraltı keçidlərin birində quraşdırılmış "E-manat" ödəmə terminalından 1800 manat pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Hüseynov saxlanılmışdır.

◆◆◆

**Qaradağ RPİ 11-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 31-də rayon ərazisindəki MMC-lərdən birinə məxsus neft quyularından 591.900 ABŞ dolları dəyərində mühərrik və generato-




run hissələrini oğurlamaqda şübhəli bilinən Salyan rayon sakinləri K.Kərimov, Ş.Babaşov və Bakı şəhər sakini Y.Rüstəmov saxlanılmışlar.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini Ə.Cəfərov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan metamfetamin götürülmüşdür.

Davam etdirilən tədbirlərlə ona narkotik vasitəni satmaqda şübhəli bilinən həmyerlisi F.Əzizov şəhər ərazisində idarə etdiyi "VAZ-2107" markalı avtomobildə saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan metamfetamin aşkar edilmişdir. Avtomobilə baxış zamanı isə 1,2 kiloqramdan artıq heroin, 2 kiloqramdan artıq marixuana, 10 qramdan artıq tiryək və metadon həbi götürülmüşdür.

◆◆◆

**Qəbələ RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Tikanlı kənd sakinləri N.Abdullayevdən və qardaşından 2 ədəd "TOZ-16" və "İJ" markalı nömrəsi siliniş ov tüfəngləri, 7 patron, patrondaş və bıçaq aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini N.Hüseynovun idarə etdiyi "Ford" markalı avtomobilə baxış zamanı oradan 1 kiloqram 560 qram heroin və 416 qrama yaxın metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Masallı RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin iyul-avqust ayları ərzində şəhər ərazisindəki çoxmənzilli yaşayış binalarının girişlərində quraşdırılmış 35 ədəd su sayğacını oğurlamaqda şübhəli bilinən şəhər sakini N.Xəlilov saxlanılmışdır.

# YAZIÇI, JURNALİST VƏ KƏŞFİYYATÇI...

**Bir neçə peşəni özündə birləşdirmək yazıçının keşməkeşli həyat yolundan, dünyagörüşünün rəngarəngliyindən və yaradıcılığının qeyri-adiliyindən xəbər verir. Həyatının bir dönəmində Britaniya kəşfiyyatına işləyən Qrem Qrin o yazıçılardandır ki, əsərləri peşə fəaliyyəti ilə birbaşa bağlıdır. Bu səbəbdən də romanları təxəyyüllə yanaşı, təcrübənin məhsuludur.**

Qrem Qrin 1904-cü ildə İngiltərənin Hartfordşir qraflığında dünyaya göz açıb. Kiçik yaşlarından mütaliəyə həvəsi olub və əsasən, Haqqard, Konrad kimi yazıçıların macəra romanlarına maraq göstərib.




Oksford Universitetinin Balliol Kollecini bitirdikdən sonra "Nottingem Cornel" və "Tayms" qəzetlərində müxbir işləyib. 1929-cu ildə "Daxildə insan" ilk romanı çap edildikdən sonra jurnalistika fəaliyyətinə son qoyub. 1932-ci ildə kəskin sujetli, siyasi detektiv janrda yazdığı "İstanbul ekspresi" romanı işıq üzü görüb. Bu və daha sonralar yazdığı "Muzdlu qatil", "Qorxu nazirliyi" kimi detektiv romanlarını yazıçı "cəlbedici əsərlər" adlandırırdı. Özünün "ciddi" əsəri kimi isə Qrem 1935-ci ildə çap olunmuş "Məni İngiltərə yaratdı" romanını görürdü.

30-cu illərin ortalarında səyahətə çıxıb. Əvvəlcə Liberiyada olan Qrem daha sonra okeanın o tayına, Meksikaya gedib.1940-cı illərdə burada şahidi olduğu hadisələrin təsirindən özünün ən məşhur "Güc və şöhrət" romanını qələmə alıb.

1941-1944-cü illərdə Britaniya kəşfiyyatına cəlb edilib. Syerra-Leone və Portuqaliyada çalışıb.

Dinamik həyat tempi, taleyində baş verən gözlənilməz dönüşlər, onu romanlarını daha kəskin və dramatik sujetdə yazmağa təsir edirdi. Qrem Qrenin əsərləri digər detektiv ədəbiyyatdan cinayət, qətl, zorakılıq və qəddarlıq faktlarının xüsusi təsvir vasitələri ilə verilməsi, onların qabardılması ilə seçilirdi. Ənənəvi detektiv janrında isə bu faktlar yardımçı rolunu oynayır və əsərin maraqlı olmasına xidmət edir. Qrem romanlarında kriminoloji faktları psixoloji gərginliklə və faciəvi şəkildə işıqlandırırdı.

1960-1970-ci illərdə reportyor kimi müxtəlif ölkələrə səyahət edib, "qaynar nöqtələr"-də olub. Qrem Qrin ömrünün son illərini İsveçrədə keçirib və 1991-ci il aprelin 3-də orada vəfat edib.

*Hazırladı:*
*Aytəkin Nəcəfova*

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Sentyabrın 1-dən 7-dək olan müddətdə polis əməkdaşları tərəfindən 44 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 12 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Sentyabr ayının 1-dən 7-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində 309 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 99 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 319, o cümlədən borclu şəxs qismində axtarışda olan 221 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 8 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 197 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9470
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik